22 oktyabr / 2020

# Hər doğulan kişi Ərdoğan olmaz

Hər doğulan kişi Ərdoğan olmaz,
Onun hər an gözü Qarabağdadır.
Ər doğan analar ümidsiz qalmaz,
Böyük qələbələr bil qabaqdadır.
Türkdür millətimin kökü, soy adı,
Millətlər içində seçilirik biz.
Yığsan millətimi yarım dünyadı,
Allahın evidir bizim qibləmiz
Nəzər sal tarixə yolundan azma,
Türkə qalib gəlmək asan deyildir.
Özü cəza verər Allah zalıma,
Bunu da müqəddəs Quran deyibdir.
Səbirdir Allahın ən böyük adı,
Səbirlə çoxları arzuya çatıb.
İlhamdır xalqımın bu gün imdadı,
Onun da ümidi göydə Allahdır.

# Mənə qaçqın demə...

Mənə qaçqın demə daha qardaşım,
Mən qaçqın deyiləm öz vətənim var.
Axır gözlərimdən sevinc göz yaşım,
İndi qapımızdan bir ötənim var.

İllər keçdi... Ayrılığa nə deyim,
Yandırdı həsrətin odu qəlbimi.
Oxuyur nəğməsin xarı bülbülüm,
Yalnız odur duyan mənim dərdimi.

Alınır torpaqlar hey qarış-qarış,
Hər qarış torpağın öz ətiri var.
Torpaqları alan əsgərə alqış,
Başları üstündə Allah çətri var.

Ali Baş Komandan igid, qəhraman,
Onun zəhmindən çəkinir düşmən.
Onu yetiribdir bizimçin zaman
Nəqədər yaşayır basılmaz vətən!

O bizə arxadır, biz ona kömək,
Birlikdə alırıq biz torpaqları.
Az qalır... Elə bir zaman gələcək,
Qarabağda yanar Novruz tonqalı.

Firdovsi, vəsf eylə bu şad günləri,
Çatlasın ürəyi yağı düşmənin.
Qovaq torpaqlardan erməniləri,
Çəkək ürəyinə dağı düşmənin!

**Firdovsi ƏLƏMOĞLU**

